# Yeni sosial-iqtisadi inkişaf strategiyası Azərbaycanın sürətli yüksəlişi üçün yol xəritəsidir

***Yeni sosial-iqtisadi inkişaf modelinin reallaşdırılması üçün ölkədə zəruri iqtisadi resurslar və müasir infrastruktur bazası mövcuddur. Strateji dövrdə sosial-iqtisadi inkişaf modeli əvvəlki dövrlərdə əldə edilmiş nailiyyətlərə əsaslanmaqla reallaşdırılacaq. Beynəlxalq nüfuza malik güclü lider, çətin dövrlərdə yüksək dövlət və vətəndaş həmrəyliyi, yeniliyə açıq və biliyi hər şeydən üstün tutan cəmiyyət, eləcə də uzun illər ərzində formalaşmış yüksək iqtisadi potensial yeni milli sosial-iqtisadi inkişaf modelinin uğurla həyata keçirilməsinin təminatıdır.***

***"Azərbaycan Respublikasının 2022—2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"ndan***



***Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında 22 iyul 2022-ci il tarixli sərəncamı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də qarşıya qoyulan vəzifələrin həyata keçirilməsinə dəstək məqsədi daşıyır. Sənəddə, həmçinin respublikamızın postpandemiya və postkonflikt dövründə 2022–2030-cu illəri əhatə edən keyfiyyətcə yeni strateji inkişaf mərhələsinə daxil olduğu vurğulanır: "Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir".***

Məhz bu məqsədlə də "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən, hazırlanan "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın reallaşması ilə ölkə iqtisadiyyatında 2026-cı ilin sonuna böyük dəyişikliklər əldə ediləcək, iqtisadi artım tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacaq, xüsusilə prioritet sahələrdə artım templəri sürətlənəcək, iqtisadiyyatın və məşğulluğun dayanıqlığı daha da güclənəcək.

Burada onu da xatırladaq ki, son 10 ildə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində tarixi uğurlar qazanılıb. Vətən müharibəsində möhtəşəm zəfərlə Azərbaycanın ərazi bütövlüyü bərpa olunub. İqtisadiyyatın perspektiv inkişafı ilə bağlı ideyalar reallaşdırılıb. Ordumuz tərəfindən torpaqlarımızın işğaldan azad edilməsi xalqımızın çoxəsrlik tarixində misilsiz nailiyyətdir. Bu, Azərbaycan dövlətinin daha da güclənməsi üçün aparılan uğurlu islahatların və uzaqgörən xarici siyasətin məntiqi nəticəsidir.

Savaşın ilk günlərindən etibarən xalqımız bir yumruq kimi Azərbaycan Prezidentinin ətrafında birləşdi, silahlı qüvvələrimiz bütün dünyaya öz yenilməzliyini və qəhrəmanlığını nümayiş etdirdi. Həm hərbi, həm də siyasi-diplomatik müstəvidə nail olunan nailiyyətlər bütün dünyaya respublikamızın gücünü sübuta yetirdi.

Son 10 ildə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik və dayanıqlıq təmin edilib, sosial rifahı dəstəkləyən iqtisadi artıma nail olunub. Ölkədə möhkəm siyasi-ictimai sabitlik və təhlükəsizlik, uzaqgörən daxili və xarici siyasət bu müddətdə qarşıya qoyulan mürəkkəb sosial-iqtisadi məqsədlərin, habelə ölkənin ərazi bütövlüyünün bərpa edilməsində həlledici rol oynayıb. Milli iqtisadiyyatın aparıcı sahələrində müasir texnologiyaların geniş tətbiqi və keyfiyyətli insan kapitalının cəlbi nəticəsində məhsuldarlıq xeyli artıb, iqtisadiyyat sürətlə şaxələnib və daxili istehsal qlobal dəyər zəncirinə səmərəli inteqrasiya edilib. Azərbaycan 4-cü Sənaye İnqilabının fəal mərkəzlərindən biri olmaqla xarici investorlar üçün nüfuzlu bir ölkəyə çevrilib. Bu dövrdə milli iqtisadiyyat 15 faiz böyüyüb, qeyri-neft-qaz sənayesində ümumi daxili məhsul isə 1,4 dəfə yüksəlib, 2011-ci illə müqayisədə qeyri-neft-qaz ixracında 78,3 faiz artıma nail olunub.

Sənəddə bildirilir ki, son 10 ildə iqtisadiyyat iki qlobal maliyyə böhranından uğurla çıxıb, ölkə iqtisadiyyatı xarici təsirlərə davamlı oub. Eyni zamanda, 2014–2015-ci illərdə qlobal əmtəə bazarında neftin qiymətinin 3 dəfəyə qədər azalması, 2020-ci ilin əvvəllərindən başlayan və davam etməkdə olan pandemiya böhranı ölkədə makroiqtisadi sabitlik üçün ciddi təhdidlər yaradıb. Bütün bunlara baxmayaraq, çevik və səmərəli iqtisadi idarəetmə hesabına ölkədə makroiqtisadi sabitlik, həmçinin əhalinin rifahı və sağlamlığı qorunub. Keçən ilin sonuna valyuta ehtiyatlarımız təxminən ÜDM-in həcminə bərabər olub ki, bu da milli iqtisadiyyatın xarici və daxili təsirlərə qarşı tam dayanıqlığını əks etdirib.

Həyata keçirilən köklü struktur-institusional islahatlar nəticəsində milli iqtisadiyyatın strukturu dəyişib, qeyri-neft sektorunun payı xeyli yüksəlib. Belə ki, 2012–2021-ci illərdə qeyri-neft-qaz ÜDM-i hər il orta hesabla 3,5 faiz artaraq, 2011-ci ildəki 25,4 milyard manatdan 2021-ci ilə 57,8 milyard manata, qeyri-neft-qaz sektorunun payı 2011-ci ildəki 48,8 faizdən 2021-ci ildə 62,2 faizə çatıb. Bu dövrdə iqtisadi artımın sahəvi hərəkətverici qüvvəsi olan qeyri-neft-qaz sənayesi 2,3 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, informasiya və rabitə sahəsi isə 2,4 dəfə böyüyüb. Ölkəyə gələn turistlərin sayı 2011-ci ildəki 1,6 mln nəfərdən artaraq 2019-cu ildə 2,9 mln nəfərə yüksəlib.

Aparılan məqsədyönlü siyasət nəticəsində qeyri-neft sektorunda özəl sektorun payı əhəmiyyətli şəkildə böyüyüb. Reallaşdırılan uğurlu struktur-institusional islahatlar nəticəsində ÜDM-də özəl sektorun xüsusi çəkisi 2019-cu ildə 85 faiz təşkil edib, pandemiya səbəbindən 2020-ci ildə bu göstərici 80,8 faiz ensə də, artıq 2021-ci ildə 83 faizi ötüb. Özəl sektorda inkişafın əsas aparıcı qüvvəsi kimi qeyri-neft-qaz özəl investisiyaları daha çox diqqət çəkib. Məhz elə buna görə də 2021-ci ildə qeyri-neft-qaz özəl investisiyaların qeyri-neft-qaz investisiyalarda payı 44,6 faizə çatıb.

İqtisadiyyatda kiçik və orta biznesin dominantlığı xeyli yüksəlib. Xüsusilə dövlət investisiyaları hesabına yaradılan müasir iqtisadi infrastruktur kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyib. Bu dövrdə qeydiyyatda olan KOB subyektlərinin sayı 3,1 dəfə artıb, qeyri-neft-qaz ÜDM-də payı isə 23,7 faiz təşkil edib. Qeyri-neft-qaz ixracın 25,5 faizi KOB tərəfindən həyata keçirilib. KOB-un fəaliyyətinin dəstəklənməsi üzrə kredit portfeli 2018-ci ildən 1,5 dəfə artaraq keçən il 4,4 milyard manata yüksəlib.

Yeri gəlmişkən, "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"da ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün yerli istehsal potensialının və infrastruktur təminatının inkişaf etdirilməsi də xüsusi vurğulanıb. Eyni zamanda, respublikanın mövcud torpaq, su və iqlim resursları əsasında ilkin kənd təsərrüfatı məhsullarının yerli istehsalı hesabına özünütəminetmə göstəricisinin ümumilikdə məqbul səviyyədə olması diqqətə çatdırılıb. Bundan başqa, yerli istehsal potensialı ilə yanaşı, ölkədə ərzaq məhsulları ehtiyatlarının saxlanması üçün anbar infrastrukturunun və emal sənayesinin inkişafı üçün yaradılan baza da dövlətimizin ərzaq təhlükəsizliyinə müstəsna əhəmiyyət verdiyini göstərib. Belə ki, təbii resursların çatışmazlığına görə idxaldan asılılığımızın nisbətən yüksək olduğu məhsullar üzrə yerli emal sənayesinin və infrastrukturun yaradılması respublikanın ərzaq təhlükəsizliyini sabit şəkildə təmin edilməsini şərtləndirib.

Qeyri-neft-qaz sahələrinin, xüsusilə özəl təşəbbüslərin sürətli inkişafında xarici investisiyalar mühüm rol oynayıb. Belə ki, 2011–2021-ci illərdə ölkənin qeyri-neft-qaz iqtisadiyyatına bütövlükdə 11,1 milyard ABŞ dolları həcmində birbaşa xarici investisiya yatırılıb. Xarici investisiyalar yüksək məhsuldar sahələrdə rəqabətli dəyər zəncirinin inkişafına və müasir infrastrukturun yaradılmasına yönəldilib.

**Qarşıdakı 5 ildə iqtisadiyyatın inkişafı daha da sürətlənəcək**

"2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"da qarşıdakı 5 il ərzində ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft ixracının artırılması hesabına davamlı və yüksək iqtisadi artımın təmin olunacağı bildirilir: "Keyfiyyətli məhsul və xidmətlər ixracı hesabına ölkə iqtisadiyyatı qlobal dəyər zəncirinə inteqrasiya ediləcək. Bu məqsədlə daha sağlam və rəqabətli biznes mühiti yaradılacaq, sahibkarlığın inkişafına dövlət geniş dəstək verəcək. Dövlətə məxsus olan hüquqi şəxslərin effektivliyi artırılacaq, onların hesabatlılığı gücləndiriləcək. Nəticədə ölkə iqtisadiyyatı hər il orta hesabla 3–4 faiz, qeyri-neft-qaz ÜDM-i isə illik orta hesabla 5 faiz artacaq. Özəl sektorun iqtisadiyyatda payı 88 faizə çatdırılacaq".

Bütün bunlarla yanaşı, sağlam və rəqabətli biznes mühiti üçün qanunun aliliyi təmin olunacaq və səmərəli məhkəmə islahatları həyata keçiriləcək. Bu islahatlar sahibkarlıq fəaliyyəti ilə məşğul olanların mülkiyyətinin və maraqlarının effektiv müdafiəsinə imkan verəcək. Sahibkarlıq fəaliyyəti üzərində izafi tənzimləmə optimallaşdırılacaq. Təbii inhisar subyektlərinin rəqabətə mənfi təsirlərinin qarşısı alınacaq və bütün bazarlarda rəqabət gücləndiriləcək. Dövlət satınalmalarında şəffaflıq və səmərəlilik artırılacaq.

İnvestisiyalar üçün əlverişli vergi şərtləri tətbiq ediləcək və digər fiskal stimullar veriləcək. Bu islahatların həyata keçirilməsi sayəsində biznes mühiti daha da sağlamlaşdırılacaq, milli iqtisadiyyata etimad artacaq və nəticədə böyük həcmdə daxili və xarici investisiyalar cəlb ediləcək.

Rəqəmsal texnologiyaların tətbiqi imkanları genişləndiriləcək strategiyada nəzərdə tutulan müddətdə rəqəmsal texnologiyaların tətbiqi imkanlarının genişləndirilməsi üçün normativ hüquqi bazanın yaradılacağı və bu sahənin dövlət tərəfindən tənzimlənəcəyi də nəzərdə tutulur. Rəqəmsal texnologiyaların inkişafı məqsədilə xüsusi fondlar və inkişaf institutlarının da fəaliyyət göstərəcəyi, bu əsasda internet, yüksəksürətli mobil internet (5G texnologiyası daxil olmaqla), xüsusilə genişzolaqlı internet xidmətlərinin əhatəsinin 95 faizə çatdırılacağı planlaşdırılır.

Həyata keçirilən bütün bu tədbirlər nəticəsində aqrar sektor, sənaye və xidmət sahələrində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlıq artacaq, həmçinin yeni iş yerləri yaradılacaq. Dövlətin stimullaşdırıcı dəstəyi ilə bu sahələrin qlobal dəyər zəncirinə dayanıqlı inteqrasiyası təmin olunacaq. Dövlət aqrar sektor, sənaye və xidmət sahələrinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında fəal iştirak edəcək, müxtəlif sənaye parkları və məhəllələri, turizm və rekreasiya zonaları yaradılacaq, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracı stimullaşdırılacaq. Nəticədə, 2022–2026-cı illərdə kənd təsərrüfatı hər il orta hesabla 4 faiz artacaq. Nəqliyyat sektorunda orta illik artım tempi 5 faizi üstələyəcək. Ölkənin tranzit yükdaşımalardan əldə etdiyi gəlir 2019-cu ildəki 227 milyon manatdan 2 dəfəyədək artaraq, 450 mln manata çatacaq.

Qeyri-neft-qaz sənayesi hər il orta hesabla 8,3 faiz artacaq, sənaye zonalarının qeyri-neft-qaz sənaye istehsalında payı 15 faiz, qeyri-neft-qaz sənaye ixracında payı isə 25 faiz olacaq. İnformasiya və rabitə sektorunda hər il orta hesabla 10 faizdən çox, tikinti sektorunda isə təxminən 3 faiz artım olacaq. Bundan başqa, 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda yaradılacaq əlavə dəyər 2019-cu illə müqayisədə 1,5 dəfə artacaq.

Sosial ədalətə əsaslanan cəmiyyətin qurulması da prioritet istiqamət kimi diqqətdə saxlanılacaq. Strategiyaya əsasən, 2022–2026-cı illərdə ölkə üzrə məkhaqları da artırılacaq və hamı üçün layiqli həyat səviyyəsi təmin ediləcək. İşləyənlərin layiqli həyat səviyyəsinin gerçəkləşdirilməsi məqsədilə minimum əməkhaqları artırılacaq. Xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbətinin məqbul səviyyəsi isə qorunacaq.

Özəl sektorda yeni iş yerləri yaradılacaq, məşğulluq səviyyəsi artacaq. Yeni iş yerləri yaradan sahibkarlıq fəaliyyəti stimullaşdırılacaq. Xüsusilə regionlarda kiçik və orta sahibkarlığın, eləcə də özünüməşğulluğun inkişafına zəruri şərait yaradılmaqla əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunacaq, qeyri-formal məşğulluğa qarşı zəruri qabaqlayıcı və nəzarət tədbirləri gücləndiriləcək, bunun nəticəsində qeyri-dövlət sektorunda məşğul əhalinin payı 2021-ci ildəki 77,6 faizdən artaraq 80 faizə çatdırılacaq. Qeyri-formal məşğulluğun mərhələli azaldılması nəticəsində muzdla işləyənlər üzrə qeyri-dövlət sektorunun payı 50 faiz təşkil edəcək.

Bütün vətəndaşlar üçün ədalətli və əhatəli sosial müdafiə sistemi qurulacaq. Pensiyaçılar üçün səmərəli yığım, aztəminatlı əhali qrupu üçün zəruri ehtiyacların ödənilməsi, əlilliyi olan şəxslər üçün isə sosial yardımların əlçatanlığı artırılacaq. Pensiya sisteminin dayanıqlığı gücləndiriləcək, sosial sığortanın tətbiqi genişləndiriləcək. Hamı üçün bərabər iştirak imkanı yaradan sosial təminat və social xidmətlər sistemi inkişaf etdiriləcək. Minimum pensiya məbləği minimum əməkhaqqı səviyyəsinin 75–80 faizində saxlanılacaq.

Qarşıdakı 5 il ərzində regionların iqtisadi və təbii potensialından səmərəli istifadə ediləcək, özəl investisiyaların cəlbi təşviq olunacaq, yeni çağırışlara uyğun regional inkişaf mexanizmləri dövlət tərəfindən dəstəklənəcək. Nəticədə, ümumi məhsul buraxılışında regionların xüsusi çəkisi 35 faizdən 42 faizə çatdırılacaq.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***